# 81 il əvvəl Türkiyədə yazılmış Aşıq Ələsgər məqaləsi

## Göyçəli Ələsgər



Dilqəm ƏHMƏD




*Türkiyədə II Dünya müharibəsi dövründə çıxan "Çınaraltı" jurnalında Azərbaycanla bağlı bir sıra məqalələr dərc olunub. Eləcə də Məhəmmədsadıq Aran, Əhməd Cəfəroğlu, Almas İldırım kimi mühacirlərimizin bu dərgidə məqalə və şeirləri işıq üzü görüb. İsmayıl bəy Qaspıralının "Dildə, fikirdə, işdə birlik" şüarı ilə çıxan bu jurnalın qısa fasilələrlə 9 avqust 1941-9 iyun 1948 tarixləri arasında 161 sayı nəşr edilib. Dərgini zamanın tanınmış ədəbiyyatçıları və fikir adamları Orhan Seyfi Orhon və Yusuf Ziya Ortaç çap ediblər.*

*Jurnalın 1942-ci ildə çıxan 23-cü sayında F. Saltkan imzası ilə "Göyçəli Ələsgər" adlı məqalə dərc olunub. Azərbaycan Cümhuriyyəti Parlamentinin Zəngəzurdan olan üzvü Məhəmmədsadıq Arana ithaf edilən məqalə Aşıq Ələsgər haqqında Türkiyədə çıxan ilk yazılardandır. Müəllif məqalədəki materialları Qarsda yaşayan azərbaycanlılardan toplayıb, xüsusi olaraq irəvanlı Abbas Odoğluna təşəkkürünü bildirib.*

*Aşıq ədəbiyyatımızın tədqiqatçılarına faydalı olacağını nəzərə alıb həmin məqaləni dilimizə uyğunlaşdıraraq təqdim edirik:*

***

F. Saltkan

Göyçəli Ələsgər

Məhəmmədsadıq Arana

"Çınaraltı"nın 16-cı sayında "İranda türk şairləri" başlığı altındakı yazısında hörmətli Məhəmmədsadıq Aran "böyük türk millətinin şeir və ədəbiyyatı mövzusu açılarkən təkcə bugünkü Türkiyədə yaşayanların, yaxud keçmiş Osmanlı imperatorluğu camiəsi arasından yetişənlərin yaratdıqları şeir, ədəbiyyat və sənət nəzərə alınır" deyərək Türkiyə xaricindəki geniş Türk dünyasının müxtəlif şöbələrində danışan xalis türklərin yaratdıqları və yaşatdıqları şeir, ədəbiyyat və sənətin məchul və unudulmuş qalmasını ürəyi yanaraq, çox haqlı olaraq anlatmışdı. Biz də bu başlıq altında sevimli "Çınaraltı"nın 8-10 sayında "Məchul və unudulmuş", sərhədin o biri tərəfində yetişmiş xalq şairlərinin (aşıqların) ən tanınmışlarından bir neçəsinin həyatını və şeirlərindən nümunələri aydınlarımıza tanıtmağa çalışacağıq.

Burada təqdim edəcəyimiz məlumat və şeir nümunələri Şərq sərhədimizdə yaşayan və keçmişdən bəri Azərbaycanın hər bölgəsindən ailələri ilə köçərək və ya qaçaraq gələn azərbaycanlıların yerləşdiyi Qars şəhərindəki qaçqınlar arasından öyrənilərək əldə edilmişdir. Yaşayış dövrünü nəzərə almadan ayrı-ayrı tanıdacağımız bu aşıqların bir qrupu Axəlkələkdən Təbriz və Tufarqanadək olan bölgələrdə yetişən azərbaycanlı aşıqlardırlar. Bir qrupu da Axəlkələkdən Batumadək olan və indi Gürcüstana qalmış bölgələrdən (yəni Axısqa, Acarıstan və Batum) yetişənlərdirlər ki, əskidən (Səlcuqlar və bütün Osmanlı idarəçiliyi çağında) buralara Çaldır və Çıldır əyaləti deyildiyi üçün biz də bu ikinciləri çıldırlı aşıqlar deyə anacağıq. İndi ilk olaraq azərbaycanlı aşıqlardan Göyçəli Ələsgəri tanıdırıq.

Aşıq Ələsgər İrəvan şəhərinin Göyçə gölünün cənub bölgəsi olan Göyçə mahalının Ağkilsə kəndindən və Əliməmmədli oymağındandır Təxminən 1837-ci ildə bu kənddə doğulmuşdur. Atası arabaçılıqla məşğul olan və Gürcüstanın Kelbecir meşələrindən (müəllif səhvə yol verib, doğrusu: Azərbaycanın Kəlbəcər meşələrindən – D.Ə) odun daşıyan və kürəkçilik edərək dolanan Əliməmməddir. Bu adam ümmi (savadsız – D.Ə), saz çalmadan aşıq sayılan (əhli-dil olan) biri imiş. Ələsgərin saza və sözə həvəsi atasından gəlibmiş, ondan öyrənibmiş. 15 yaşlarında ikən daha yaxşı saz çalmaq üçün Göyçənin Qızılvəng kəndindəki Aşıq Alının yanına getmiş və onun yanında saz ustası olmuşdur.

Az bir zamanda gözəl saz çalması və dəyərli deyişləri ilə məşhur olan Aşıq Ələsgəri hər tərəfdən aşıqlar görməyə və qarşılıqlı deyişməyə gəlmişlər. Onlar arasında göyçəli aşıqlardan Musa, Əli, Məhəmməd və Dərələyəzdən Qəhrəman, Məhərrəm, Aydın, şair Məhəmməd, Hüseyn, şair Nağı ilə qarşı-qarşıya gəlmiş, hamısını da deyişmələrdə mat etmişdir. Öz eldaşları arasından da Çarıqlı kəndindən Hüseyn, Qızılvəngdən Mustafa, Daşkənddən Nəcəfi və bu gün Azərbaycan Aşıqlar Qurultayında birincilik qazanan Qaraqoyunlu Aşıq Əsəd kimi aşıqları yetişdirmişdir. Son dövrlərin ən məşhur aşıqlarından olan Ələsgər 1926-cı ilin yazında İrəvanın Yanşaq kəndində 90 yaşına varmışkən ölmüşdür. Dəyərli deyişlərindən bir neçəsini nümunə olaraq təqdim edirik.




### Qoşma

Ucalardan uçub gedən durnalar,
Bir kiçik havada qalsaz nolardı
Ürəyim darıxır, könlüm səyrəşir
Dərdimə bir çara qılsaz nolardı.

Qan-yaş tökər gecə-gündüz gözlərim
Od tutuşub yar yolunu gözlərim
Qol-qanadım yoxdur tutmaz dizlərim
Yar halından salıq salsaz nolardı.

Uça-uça gəldiz Gökçə dənizdən
Çuxursəddən enərsiniz tezdən
Ələsgərəm, ricam bir budur sizdən
Məni də aranıza salsaz nolardı.

***

### Şeki

**Sevdicəyim, hanı gözəllər xanı
Dün güzarım sizin otağa düşdü.
Buyursan fərmanı alarlar canı
Püşkatdın can sana sadağa düşdü.**

**Sallan qələm qaşdı, yanı yoldaşdı
Qalmışam ataşda mən başı daşdı
Huş başımdan çaşdı, dilim dolaşdı
Gözlərim sataşdı buxağa düşdü.**

**Atlasdan qıbalı belində şalı
Gövhərdən bahalı üzündə xalı
Geydi yaşıl alı, yığdı mahalı
Əyri tellər ayna qabağa düşdü.**

**Yeriyirdi manqa yaşılbaş sona
Yaraşır canana ağ nazik cuna
Tellərində şana, əlində xına
Yəmən yaqut əhmər dodağa düşdü.**

**Çox çəkmişəm cəfa gəlsən insafa
And olsun mushafa olmam beyvəfa
Gəlmişəm təvafa versən bir şəfa
Ələsgər xəstədir, ocağa düşdü.**

### Gözəlləmə

**Ay nazənin, ay qabağın altından
Nə göyçək çəkilib qara qaşların
Süzücək gözlərin canım üzüldü
Vurubdur sinəmə yara qaşların.**

**Əslin mələkzadə, cismin qılmandı
Eşqin firqətindən ciyərim yandı
Ədalət sultandır, haqqı divandı
Mürvət eylər günahkara qaşların.**

**Bülbül təki qaldım gül fərağında
Leyli Məcnun kimi tərsa dağında
Yazıq Ələsgəri qoca çağında
Çəkdirdi zülm ilə dara qaşların.**

### Öyüdləmə

**Arif olan, gəlin, sizə söyləyim
İgid sözü mərd mərdanə yaxşıdır
İgid gərək dediyindən dönməsin
Beyilqardan bir zənənə yaxşıdır.**

**Qəlbi düz olanın evi hac olur
Qonşuya gəc baxan özü ac olur
İki arvadlıq zəhərdən ac olur
Bez geydirsən bir canana yaxşıdır.**

### Toy

**Yaraşdırıb əndamına
Geyinibdir sarı gözəl
Yaradan veribdir sana
Böylə ixtiyarı, gözəl.
Dolubdur əttar sinənə
Bağçaların barı gözəl
Lütf eylə mən xəstədən
Əsirgəmə narı gözəl
Tək matahı xırıd eylə
Aç indi bazarı gözəl.**

**Mən səni görəndən bəri
Olmuşam dəli divana
Az qalıb ki Kərəm kimi
Od tutub cismim yana.
Arif görsə, rəhm eylər
Mənim kimi xəstə cana
Bir də üzün bəri döndər
And verirəm əhd peymana
Məcnun tək sənin dalına
Gəzərəm dağları gözəl.**

**Ey beymürvət azca qaldı
Canımı ala gözlərin
Nahaq yerdən məni saldı
Nə qalmaqala gözlərin
Mən qiymət qoya bilmərəm
Dəyər mahala gözlərin
Yüz ilin xəstəsini də
Gətirər hala gözlərin.
Bir də görsəm gözlərini
Çəkmərəm azarı gözəl.**

**Əlim uzaq, qəlbim yaxın
Bələdəm hər bir halına
Görəcək valehi oldum
Həbəşü-həddü xalına
Arı təki sızıllaram.
Dodaqlarında balına
Yaylaqların ceylanısan
Əhsəni gül camalına
O mərmərdən bəyaz sinən
Savalanın qarı gözəl.**

**Ağlımı aldı əlimdən
Baxdım gözün alasına
Canımı qurban eylərəm
Böylə gözəllər xasına.
Libas əndamına uyur
Əndam uyur libasına.
Bu Ələsgər məcnun oldu
Düşdü Leyli sevdasına
Sayılım mən bir saya sal
Üz döndərmə barı gözəl.**

*Aşıq Ələsgər İrəvan şəhərinin Göyçə gölünün cənub bölgəsi olan Göyçə mahalının Ağkilsə kəndindən və Əliməmmədli oymağındandır Təxminən 1837-ci ildə bu kənddə doğulmuşdur. Atası arabaçılıqla məşğul olan və Gürcüstanın Kelbecir meşələrindən (müəllif səhvə yol verib, doğrusu: Azərbaycanın Kəlbəcər meşələrindən – D.Ə) odun daşıyan və kürəkçilik edərək dolanan Əliməmməddir. Bu adam ümmi (savadsız – D.Ə), saz çalmadan aşıq sayılan (əhli-dil olan) biri imiş. Ələsgərin saza və sözə həvəsi atasından gəlibmiş, ondan öyrənibmiş. 15 yaşlarında ikən daha yaxşı saz çalmaq üçün Göyçənin Qızılvəng kəndindəki Aşıq Alının yanına getmiş və onun yanında saz ustası olmuşdur...*

